# Pambıqçılığın inkişafına şərait yaradan amillər

*Bölgələrdə pambıqçılığın inkişafına dair keçirilən müşavirələrdə bu məsələlər ciddi təhlil olunmuşdur*

## BİLƏSUVAR




**Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə 17 sentyabr 2016-cı il tarixdə Sabirabad rayonunda keçirilən “Respublikada pambıqçılığın inkişafına dair” müşavirədə verilən tapşırıqların icrası ilə əlaqədar Biləsuvar rayonunda 20 sentyabr 2016-cı il tarixdə Heydər Əliyev Mərkəzində pambıqçılığın inkişafı sahəsində görülən işlər və qarşıda duran vəzifələrə həsr olunmuş rayon müşavirəsi keçirildi.**

Müşavirədə rayon icra hakimiyyətinin başçısı Mahir Quliyev, hüquq-mühafizə orqanlarının, aidiyyəti idarə, müəssisə və təşkilatların rəhbərləri, pambıq qəbulu və emalı məntəqələrinin əməkdaşları, sahibkarlar və mülkiyyətçilər iştirak etdi.

Müşavirədə Biləsuvar Rayon İcra Hakimiyyətinin başçısı Mahir Quliyev çıxış edərək bildirdi ki, ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə respublikamızda qeyri-neft sektorunun inkişafı sahəsində həyata keçirilən tədbirlər bütövlükdə respublikamızın, eləcə də hər bir regionun inkişaf istiqamətlərini, imkanlarını və perspektivlərini müəyyən edir. Hazırda regionlarda qeyri-neft sektorunun prioritet istiqamətlərindən olan aqrar sahənin inkişaf etdirilməsi ilə bağlı aparılan işlər Biləsuvar rayonunda da öz bəhrəsini verməkdədir. Biləsuvar həmişə respublikamızın aparıcı aqrar rayonlarından biri olmuş, daha çox pambıqçılıq ənənələrinin inkişafına görə tanınmışdır.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə 17 sentyabr 2016-cı il tarixdə Sabirabad rayonunda keçirilən pambıqçılığın inkişafına dair müşavirədə dövlət başçısı qeyd etdi ki, bu il bütövlükdə 51 min hektar sahədə pambıq əkilib və bu, keçən illə müqayisədə təxminən üç dəfə çoxdur. Cənab Prezident müşavirədə qeyd etdi ki, əgər keçən il 35 min ton pambıq yığılıbsa, bu il ən azı 100 min ton pambıq yığılmalıdır. Gələn il üçün bizim daha da böyük planlarımız var. Gələn ilə hazırlıq işləri artıq başlayıb. Bu il buna böyük vəsait sərf olunub, operativ olaraq bütün lazımi tədbirlər görülübdür.

Ulu Öndər Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi 70-80-ci illərdə rayonumuzda pambıq istehsalı ən yüksək səviyyəyə çatmış, bu sahə Biləsuvara və biləsuvarlılara firavanlıq və şöhrət gətirmişdir. Pambıqçılığın inkişafını daim öz diqqətində saxlayan ulu öndər dəfələrlə Biləsuvar rayonunda olmuş və əmək adamları ilə pambıq tarlalarında görüşmüşdür. O illərdə Biləsuvarda 14 min hektar sahədə pambıq əkilmiş, hər il 35-40 min ton pambıq istehsal olunmuşdur.

Pambıq əkininə əlavə subsidiyanın verilməsi, pambığın qiymətinin artırılması, fermerlərə toxum, gübrə alınmasında, aqrotexniki işlərin aparılmasında dövlət tərəfindən müvafiq köməkliklərin göstərilməsi, fermerlərin və emal müəssisələrin güzəştli şərtlərlə maliyyələşdirilməsi ilə bağlı köməkliklər göstərilməsi rayonumuzda pambıqçılığa marağı daha da artırmışdır. Bunun nəticəsidir ki, son illərlə müqayisədə bu il dəfələrlə çox 6040 hektar sahədə pambıq əkilmişdir. Pambıqçılarımız həmin sahələrdən 14 min tona yaxın məhsul gözləyirlər.

Pambıqçılığın inkişafı rayonumuzun əhalisi üçün yeni iş yerləri deməkdir, təminatlı həyat deməkdir, sabaha inam deməkdir. Bütün bunları nəzərə alaraq rayonumuzda növbəti ildə 10.5 min hektar sahədə pambıq əkininin aparılması üçün hazırlıq işləri aparılır.

Biləsuvar Rayon İcra Hakimiyyətinin başçısı Mahir Quliyev çıxışında bildirdi ki, bu il toplanacaq məhsulun vaxtında və itkisiz yığılması üçün pambıq qəbul məntəqələrinə və emal zavodlarına daşınması zamanı səmərəliliyin artırılması, ciddi təhlükəsizlik, xüsusən də yanğından mühafizə tədbirlərinin görülməsi, tədarük və emal dövründə emal zavodları və qəbul məntəqələrinin fasiləsiz elektrik enerjisi ilə təmin olunması təmin edilməli, tədarükçü şirkətlər fermerlərlə hesablaşmaları dəqiq və ləngitmədən aparmalıdırlar.

M.Quliyev gələn il əkiləcək pambıq sahələrinin hazırlanması istiqamətində görüləcək işləri qeyd etdi, tapşırıq və göstərişlərini verdi.

Sonra rayonun aidiyyəti təşkilat rəhbərləri və icra nümayəndələri çıxış edərək görülən işlərdən danışdılar, əkin zamanı yaranan bəzi çətinliklərin həlli yollarını müzakirə etdilər.

**Ərəstun ABDULOV,**
**“Respublika”.**

## CƏLİLABAD



**Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə 17 sentyabr 2016-cı il tarixdə Sabirabad rayonunda keçirilən “Respublikada pambıqçılığın inkişafına dair” müşavirədə verilən tapşırıqların icrası ilə əlaqədar 20 sentyabr 2016-cı il tarixdə Cəlilabad rayonu Heydər Əliyev Mərkəzində pambıqçılığın inkişafı sahəsində görülən işlər və qarşıda duran vəzifələrə həsr olunmuş müşavirə keçirildi.**

Müşavirədə rayon icra hakimiyyətinin başçısı Əziz Əzizov, hüquq mühafizə orqanlarının, aidiyyəti idarə, müəssisə və təşkilatların rəhbərləri, sahibkarlar və mülkiyyətçilər iştirak etdi. Müşavirədə başçı Əziz Əzizov çıxış edərək bildirdi ki, ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə respublikamızda qeyri-neft sektorunun inkişafı sahəsində həyata keçirilən tədbirlər bütövlükdə respublikamızın, eləcə də hər bir regionun inkişaf istiqamətlərini, imkanlarını və perspektivlərini müəyyən edir. Hazırda regionlarda qeyri-neft sektorunun prioritet istiqamətlərindən olan aqrar sahənin inkişaf etdirilməsi ilə bağlı aparılan işlər Cəlilabad rayonunda da öz bəhrəsini verməkdədir.

Əziz Əzizov Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə 17 sentyabr 2016-cı il tarixdə Sabirabad rayonunda keçirilən pambıqçılığın inkişafına dair müşavirədə cənab Prezidentin bu sahəyə göstərdiyi diqqəti bir daha vurğulayaraq qeyd etdi ki, ölkə rəhbəri çıxışında bu il bütövlükdə 51 min hektar sahədə pambıq əkildiyini bildirdi və bu keçən illə müqayisədə təxminən üç dəfə çoxdur. Cənab Prezident müşavirədə qeyd etdi ki, “Əgər keçən il 35 min ton pambıq yığılıbsa, bu il ən azı 100 min ton pambıq yığılmalıdır. Gələn il üçün bizim daha da böyük planlarımız var. Gələn ilə hazırlıq işləri artıq başlayıb, bu il buna böyük vəsait sərf olunub, operativ olaraq bütün lazımi tədbirlər görülübdür. Pambıq əkininə əlavə subsidiyanın verilməsi, pambığın qiymətinin artırılması, fermerlərə toxum, gübrə alınmasında, aqrotexniki işlərin aparılmasında dövlət tərəfindən müvafiq köməkliklərin göstərilməsi, fermerlərin və emal müəssisələrin güzəştli şərtlərlə maliyyələşdirilməsi ilə bağlı köməkliklər göstərilməsi rayonumuzda pambıqçılığa marağı daha da artırmışdır.

RİH başçısı bildirmişdir ki, bu rayonda 426 hektar pambıq əkilmişdir. Pambıqçılığın inkişafı rayonumuzun əhalisi üçün yeni iş yerləri deməkdir, təminatlı həyat deməkdir, sabaha inam deməkdir. Bütün bunları nəzərə alaraq rayonumuzda növbəti ildə 500 hektar sahədə pambıq əkininin aparılması üçün hazırlıq işləri aparılır.

Tədbirdə rayon kənd təsərrüfatı idarəsinin rəisi Rahib Kərimov və fermerlər çıxış edərək əkilmiş pambıq sahələrində görülmüş işlərdən və aparılan yığım işləri barədə məlumat vermişdir.

Başçı Əziz Əzizov çıxışında bildirdi ki, bu il toplanacaq məhsulun vaxtında və itkisiz yığılması üçün pambıq qəbul məntəqələrinə və emal zavodlarına daşınması zamanı səmərəliliyin artırılması, ciddi təhlükəsizlik, xüsusən də yanğından mühafizə tədbirlərinin görülməsi, tədarük və emal dövründə emal zavodları və qəbul məntəqələrinin fasiləsiz elektrik enerjisi ilə təmin olunması təmin edilməli, tədarükçü şirkətlərin fermerlərlə hesablaşmaları dəqiq və ləngitmədən aparmalıdılar.

Müşavirənin sonunda RİH başçısı Əziz Əzizov gələn il əkiləcək pambıq sahələrinin hazırlanması istiqamətində görüləcək işləri qeyd etdi, tapşırıq və göstərişlərini verdi.

**A.MUSTAFAYEV,**
**“Respublika”.**

## SALYAN



**Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sədrliyi ilə Sabirabad rayonunda keçirilmiş pambıqçılığın inkişafına dair respublika müşavirəsində möhtərəm Prezidentimizin nitqindən irəli gələn vəzifələrlə əlaqədar Salyan rayonunda yığıncaq keçirilmişdir.**

Heydər Əliyev Mərkəzində keçirilmiş müşavirədə fermerlər, inzibati ərazi dairələri üzrə nümayəndələr, bələdiyyə sədrləri, idarə, müəssisə, təşkilat rəhbərləri, hüquq-mühafizə orqanlarının rəhbərləri iştirak etmişdir.

Tədbiri giriş sözü ilə açan rayon icra hakimiyyətinin başçısı Sevindik Hətəmov çıxışında qeyd etdi ki, ölkə Prezidenti cənab İlham Əliyevin regionlarda qeyri-neft sektorunun prioritet istiqamətlərindən olan aqrar sahənin inkişaf etdirilməsi ilə bağlı aparılan işlər Salyan rayonunda da öz bəhrəsini verməkdədir.

Sevindik Hətəmov bildirdi ki, ölkə Prezidenti müşavirədə qeyd etdi ki, əgər keçən il 35 min ton pambıq yığılıbsa, bu il ən azı 100 min ton pambıq yığılmalıdır. Gələn il üçün bizim daha da böyük planlarımız var. Bu il görülən tədbirlər nəticəsində ən azı 100 min ton pambıq tədarükünü gözləyirik. 2017-ci ildə — biz 250 min, hətta 300 min ton pambıq istehsal edə bilərik.

RİH başçısı qeyd etdi ki, rayonda bu il 2180 hektar pambıq əkilmişdir. Pambıqçılığın inkişafı rayonumuzda yeni iş yerləri deməkdir. Bütün bunları nəzərə alaraq, rayonumuzda növbəti ildə 7 min hektar bambıq əkininin aparılması üçün hazırlıq işləri aparılır. Yəni bu da çox sürətli inkişaf dinamikasıdır. Müşavirədə rayon kənd təsərrüfatı idarəsinin rəisi Tariel Atamalıyev və fermerlər çıxış edərək, pambıq sahələrində görülən işlərdən və aparılan yığım barədə məlumat vermişlər.

Tədbirin sonunda RİH başçısı Sevindik Hətəmov gələn il əkiləcək pambıq sahələrinin hazırlanması istiqamətində görüləcək işləri qeyd etdi, tapşırıq və göstərişlərini verdi.

**Asim MUSTAFAYEV,**
**“Respublika”.**

## NEFTÇALA




**Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sədrliyi ilə 17 sentyabr 2016-cı il tarixində Sabirabad rayonunda keçirilən pambıqçılığın inkişafına dair respublika müşavirəsində dövlət başçısının nitqindən irəli gələn məsələlər və Neftçala Rayonunun İcra Hakimiyyətinin qarşısında duran vəzifələr barədə yığıncaq keçirilmişdir.**

Yığıncağı giriş sözü ilə açan Neftçala Rayon İcra Hakimiyyətinin başçısı İsmayıl Vəliyev Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin siyasi irsinə əsaslanmış və Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən respublikamızda qeyri-neft sektorunun, o cümlədən kənd təsərrüfatının strateji sahələrindən hesab olunan pambıqçılığın inkişaf etdirilməsi ilə bağlı qəbul etdiyi müdrik qərarlar, verdiyi tapşırıq və tövsiyələr sayəsində, ölkəmizdə bu sahənin sürətli inkişafına qısa müddətdə əlverişli şərait yaradıldığını qeyd etmişdir. Başçı demişdir ki, respublikamızda sahibkarlığa dövlət dəstəyinin gücləndirilməsi, torpaqlardan səmərəli istifadə edilməklə ölkənin ərzaq təhlükəsizliyinin təmin edilməsi, yeni iş yerlərinin yaradılması, ən başlıcası isə insanların həyat şəraitinin yaxşılaşdırılması sahəsində qarşıya qoyulan vəzifələr ali məqsədlərə xidmət edir və bu baxımdan 17 sentyabr 2016-cı il tarixində Sabirabad rayonunda keçirilən pambıqçılığın inkişafına dair respublika müşavirəsinin çox böyük önəmi olduğunu vurğulamışdır.

Sabirabad rayonunda pambıqçılığın inkişafına dair respublika müşavirəsi keçirilmiş və cənab Prezident müşavirədəki nitqində demişdir ki, – kənd təsərrüfatının inkişafı Azərbaycanda prioritet sahədir. İndi fermerlər torpaq vergisi istisna olmaqla, bütün vergilərdən azaddırlar. Böyük həcmdə subsidiyalar verilir. Fermerlərə subsidiya şəklində 200 milyon manata yaxın vəsait verilir. Kənd təsərrüfatı texnikası, gübrələr və yanacaq fermerlərə güzəştli şərtlərlə verilir. Burada da həm dövlət nəzarəti, ictimai nəzarət güclü olmalıdır, həm də yerli icra orqanları bu işlərdə daha da fəal olmalıdırlar ki, dövlət tərəfindən ayrılan vəsait ünvana çatsın və bunun nəticəsi olsun. Biz Azərbaycana valyuta axınını təmin etməliyik. Ona görə, ixracyönümlü məhsulların istehsalı xüsusi əhəmiyyət daşıyır. Pambıq da ixracyönümlü məhsuldur. Təsadüfi deyil ki, pambığa “Ağ qızıl” deyirlər. Bu il pambıqçılığın bərpasının birinci ilidir. Bu il bütövlükdə 51 min hektar sahədə pambıq əkilib. Keçən illə müqayisədə bu, təxminən üç dəfə çoxdur. Əgər keçən il 35 min ton pambıq yığılıbsa, bu il ən azı 100 min ton pambıq yığılmalıdır. Gələn il üçün bizim daha da böyük planlarımız var. Gələn ilə hazırlıq işləri artıq başlayıb. Bu il buna böyük vəsait sərf olunub, operativ olaraq bütün lazımi tədbirlər görülübdür. Suvarma ilə, elektrik enerjisi ilə bağlı tədbirlər görülüb, yeni pambıqyığan kombaynlar, yüzlərlə adda kənd təsərrüfatı texnikası gətirilib. Biz torpaqlardan çox səmərəli şəkildə istifadə etməliyik. Bizim çox böyük torpaq sahələrimiz yoxdur. Biz ancaq yeni texnologiyalar, meliorativ tədbirlər nəticəsində yeni, böyük torpaq sahələrini dövriyyəyə cəlb edə bilərik. Böyük torpaq sahələri daha da səmərəli şəkildə dövriyyəyə buraxılacaq. Ona görə, bu il çox ciddi təftiş aparılır. Bəzi torpaqlar müxtəlif adamlar tərəfindən qanunsuz olaraq zəbt edilib və o torpaqlarda heç bir fəaliyyət göstərilmir. O torpaqların icarə müqavilələri ləğv edilməlidir. Artıq bir çox icarə müqavilələri ləğv olunub, bu proses davam etdirilir.

Dövlət başçısı təbdirdə deyib ki, dövlət orqanları, yerli orqanlar və ictimaiyyət tərəfindən çox ciddi nəzarət olmalıdır. Mən dəfələrlə demişəm ki, ictimai nəzarət Azərbaycanda güclü olmalıdır. İctimai nəzarət, yəni, vətəndaşların nəzarəti güclü olarsa, onda biz bu işləri daha da böyük uğurla həll edə bilərik. Bir daha qeyd etmək istəyirəm ki, pambıqçılıq özündə bir çox önəmli amili birləşdirir. Bu, kənd təsərrüfatının sürətli inkişafı, yüz minlərlə iş yerinin yaradılması, ixrac potensialımızın inkişafı deməkdir və dövlətin özəl sektora praktiki diqqətinin, dəstəyinin təzahürüdür. Ona görə də koordinasiya mütləq olmalıdır və bütün işlər vahid mərkəzdən idarə edilməlidir. Biz ancaq bu təqdirdə istədiyimizə nail ola bilərik. Bir daha demək istəyirəm ki, 2016-cı il pambıqçılığın inkişafı üçün həlledici il olacaq. Bu, bir başlanğıcdır və əminəm ki, bundan sonra pambıqçılıq Azərbaycanda sürətlə inkişaf edəcək, geniş vüsət alacaq. Dediyim kimi, bunun həm insanlara, həm dövlətə böyük xeyri olacaq.

RİH başçısı İsmayıl Vəliyev Prezidentin nitqində qeyd olunan məsələlərlə bağlı bəzi məqamlara toxunaraq pambıqçılığın inkişafı ilə bağlı aparılan uğurlu siyasətin ölkəmizin bütün regionlarında olduğu kimi, Neftçala rayonunda da öz bəhrəsini verdiyini qeyd etmişdir.

2016-cı ildə ümumilikdə rayon üzrə 1541 hektar torpaq sahəsində pambıq becərilmişdir ki, bundan 1089 hektarı xüsusi mülkiyyətdə, 200 hektarı dövlət torpaq fondundan, 252 hektarı isə bələdiyyə mülkiyyətinə aid olan torpaqlardır. Qeyd olunan torpaq sahələrinin mülkiyyətçiləri ilə “MKT-Salyan” (1498 ha) və “CTS Aqro” MMC-nin Salyan pambıq istehsalat və tədarükü məntəqəsi (43 ha) arasında müqavilələr bağlanmış və müqavilə şərtlərinə əsasən pambığın becərilməsində və yığılmasında zəruri tədbirlər görülmüşdür. Həmin torpaq sahələrində aqrotexniki qaydalara əsasən pambıq sahələri becərilmiş, suvarma suyu ilə təmin edilmiş və hazırda pambıq yığımı davam etdirilir. Hazıradək becərilmiş 1541 hektar pambıq sahələrindən ümumilikdə 200 tondan yuxarı pambıq yığılaraq “MKT-Salyan” və “CTS Aqro” MMC-nin Salyan pambıq istehsalat və tədarükü məntəqəsinə təhvil verilmişdir. Pambığın becərilməsində və yığılan pambığın daşınmasında ümumilikdə 100 ədəddən çox kənd təsərrüfatı texnikasından istifadə edilmişdir. Yığım dövründə ümumilikdə 2184 nəfər işçi qüvvəsi cəlb edilmişdir ki, bu da öz növbəsində əhalinin məşğulluq səviyyəsinə müsbət təsir göstərir. Hazırda sahələrdə pambıq yığımı davam etdirilir. Pambıq yığımı ilə əlaqədar aidiyyəti qurumlarla birgə pambığın vaxtında və itkisiz yığılması üçün zəruri olan bütün tədbirlər görülmüşdür.

2017-ci ildə 10100 hektar torpaq sahəsində pambıq əkilməsi nəzərdə tutulmuşdur ki, bu torpaqların böyük qismi xüsusi mülkiyyətdə olan torpaqlardır. Həmin torpaq sahələrində suvarmanın müntəzəm qaydada aparılmasını, pambığın aqrotexniki qaydada becərilməsini nəzərə alaraq, məhsuldarlığın ən aşağı həddə hər hektara 25 sentner olması qarşıya məqsəd qoyulmuşdur. Növbəti ildə 27-30 min ton pambıq yığılması proqnozlaşdırılır.

Torpaqların münbitliyinin və məhsuldarlığın artırılması məqsədilə pambıq-yonca-taxıl növbəli əkin sisteminə keçid nəzərdə tutulur. Nəzərdə tutulan 10100 hektar torpaq sahəsində sentyabr ayından başlayaraq dekabrın 20-dək 28-32 sm dərinlikdə şum aparılması və şum altına hər hektara 5-10 ton üzvi və mineral gübrə verilməsi aqrotexniki qaydada həyata keçiriləcəkdir. Hazırda 10100 hektar torpaq sahəsi şumlanması ilə bağlı fermer və torpaq mülkiyyətçiləri ilə “MKT-Salyan” və “CTS Aqro” MMC-nin Salyan pambıq istehsalat və tədarükü məntəqəsi ilə müqavilələrin bağlanmasına başlanmışdır. Mütləq qaydada qış və yaz aratlarının aparılması, sahələrin malalanması və ümumilikdə hazırlıq işləri, növbəti ildə çiyid səpinini optimal müddətdə, aprel ayında başa çatdırmağa imkan verəcəkdir. Pambıq sahələrinin alaq otları və ziyanvericilərə qarşı mübarizədə lazımi dərmanlarla təchiz olunmasında fermerlərə yaxından köməklik göstəriləcəkdir.

Rayon icra hakimiyyəti, Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin pambıqçılığın inkişafı ilə bağlı verdiyi tapşırıqların yerinə yetirilməsi istiqamətində bundan sonra da bütün imkanları səfərbər edəcək, əhalinin məşğulluğunun təmin edilməsi və həyat səviyyəsinin daha da yüksəldilməsi üçün qarşıya qoyulan vəzifələri icra edəcək, bu istiqamətdə lazımi tədbirlər görəcək və gələcək fəaliyyətində öz işini günün tələbləri səviyyəsində quracaqdır.

**Asim MUSTAFAYEV,**
**“Respublika”.**

## AĞDAM

**Vaxtilə Ağdam ölkənin ən iri pambıq istehsalçılarından biri kimi məşhur olub. Rayonda ötən əsrin 70-80-ci illərində yüz min tondan çox pambıq istehsal olunub. Pambıqçılıq üzrə rayonda bir neçə iri təsərrüfat olub və burada məşhur pambıq ustaları yetişib. Sosialist Əməyi qəhrəmanları Xuraman Abbasova, Sürəyya Kərimova,Tamaşa Əliyeva, Nazilə Abbasova və başqaları ölkənin ən məşhur əmək qəhrəmanları kimi tanınıb. Xalqımızın ümummilli lideri Heydər Əliyev bir neçə dəfə Ağdamda səfərdə olub və burada pambıqçılığın inkişafı üçün mühüm qərarlar qəbul edib.**

Prezident İlham Əliyevin göstərişi əsasında ölkəmizdə pambıqçılığın inkişaf etdirilməsi üçün genişmiqyaslı işlərə başlanılıb. Strateji məhsul olan pambıq istehsalının ilbəil artırılması üçün münbit şərait yaradılıb.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə sentyabrın 17-də Sabirabad rayonunda keçirilən müşavirədə pambıqçılığın inkişafı ilə bağlı verilən tapşırıqların icrası ilə əlaqədar qarşıda duran vəzifələr Quzanlı qəsəbəsində müzakirə edilib.

Pambıq istehsalçılarının, fermerlərin, kənd inzibati ərazi nümayəndələri və bələdiyyə sədrlərinin iştirak etdiyi toplantıda Ağdam Rayon İcra Hakimiyyətinin başçısı Raqub Məmmədov çıxış edərək, kənd təsərrüfatının strateji sahələrindən hesab olunan pambıqçılığın inkişaf etdirilməsi ilə bağlı dövlət başçısının verdiyi tapşırıq və tövsiyələrin ölkəmizdə bu sahənin sürətli inkişafına əlverişli şərait yaratdığını bildirib.

Pambıqçılığın inkişafı ilə bağlı həyata keçirilən tədbirlərdən bəhs olunarkən diqqətə çatdırılıb ki, əgər ötən il rayon ərazisində 36 hektarda pambıq əkilmişdisə, bu il 55 hektarda “ağ qızıl” becərilib. Gələn il isə 3000 hektarda pambıq əkilməsi üçün hazırlıq işləri görülür. Pambığı əsasən “CTS Aqro” MMC və “MKT İstehsalat Kommersiya” MMC ilə müqavilə əsasında becərən fermerlər texnikalarla, toxum, gübrə və kimyəvi preparatlarla təmin ediliblər.

Kənd təsərrüfatı idarəsinin rəisi Allahverən Əliyev, mexaniki suvarma idarəsinin rəisi Hafiz Əzimzadə, statistika idarəsinin rəisi Xosrov İsmayılov, fermer Həsrət Səfərov və başqaları çıxış edərək, pambıqçılığın inkişafı, məhsulun vaxtında və itkisiz yığılması üçün qarşıda duran vəzifələrdən danışıblar.

Məlumat verilib ki, pambığın becərilməsində suvarma, gübrələmə, kultivasiya, zərərverici və xəstəliklərə qarşı mübarizə, ucvurma və sair kimi aqrotexniki tədbirlər vaxtında həyata keçirilib. Məhsulun maşınla yığılması nəzərdə tutulan sahələrdə pambığın yarpaqlarının kimyəvi yolla tökdürülməsi üçün defoliasiya işləri görülüb. Artıq rayonda pambığın əl ilə yığımına başlanılıb. 2017-ci ildə pambıq əkinlərinin daha çox sahədə aparılmasını nəzərə alaraq rayonda “MKT İstehsalat Kommersiya” MMC-nin pambıq qəbulu məntəqəsinin açılması nəzərdə tutulur.

Yığıncaqda pambıqçılıq təsərrüfatlarının rəhbərləri və fermerlərin təklifləri dinlənilib, qarşıya çıxan çətinliklərin aradan qaldırılması üçün müvafiq orqanların rəhbərlərinə göstərişlər verilib.

Hazırda gün ərzində rayonun əlimizdə qalan hissəsində 5 min tondan çox pambıq yığılaraq qəbul məntəqələrinə göndərilir. Ağdam pambıqçıları keçmiş şöhrəti bərpa etmək üçün əzmlə çalışırlar.

**Salman ALIOĞLU,**
**“Respublika”.**